# Qobustan möcüzələri

*(ikinci yazı)*

**Qobustanda müxtəlif tarixi dövrlərdə qayada çəkilmiş gəmi (qayıq) təsvirlərinin çoxluğu, balıq, balıqçı toru təsvirləri, sümükdən balıq toru toxumaq və dayazsularda balıq vurmaq üçün tapılmış alətlər qədim qobustanlıların həm də mahir balıqçı, peşəkar qayıq düzəldən vədənizsəyyahıolduqlarınıgöstərir. Balıqçılıq qobustanlıların həyat və təsərrüfatında ovçuluq və yığıcılıq da az əhəmiyyətli sahə olmayıb. Buna görə də onlar hələ Mezolit dövründən qayıq düzəldib dənizə çıxa bilmişlər .**



Qobustanda Cingirdağ , Böyükdaş və Kiçikdaş dağları ərazisində Üst Paleolit dövründən başlamış həyat min illər boyu, eramızın orta əsrlər dövrünə qədər davam etmişdir. Bu dövr ərzində davam edən həyat Qobustanda qayaüstü təsvirlərdən əlavə müxtəlif dövrlərin həyat, təsərrüfat və mədəniyyətinin izlərini qoymuş, bir çox müxtəlif tipli tarixi abidələr yaratmışdır. Qayaüstü təsvirlər kimi Qobustanda başqa tarixi-mədəni abidələr də müxtəlif tiplidir. Onların da yaranması və müxtəlif tipli olması Qobustanda həyatın minillər boyu davam etməsi, bu dövr ərzində insanların yaşayış tərzinin, həyat iqliminin dəyişməsi ilə bağlıdır. Belə abidələrə qazıntılar nəticəsində qədim düşərgə və yaşayış yerlərindən əldə edilmiş daş alətlər, silahlar, bəzək əşyaları, Qobustanın qədim musiqi aləti "Qavaldaş", çalalar, dəlmələr, qədim yazılar, işarə və damğalar, pirlər, karvansaralar və s. daxildir.





Bu kimi abidələrin də xalqımızın keçmişi, tarixi, adətənənəsi, təsərrüfat həyatı, dünya görüşü və s. Haqda anlayışları araşdırmaq üçün əhəmiyyəti böyükdür.

Qavaldaş. Qobustanda maraq doğuran qədim abidələrdən biri qədim musiqi aləti olan Qavaldaşdır. İshaq Cəfərzadənin əsərlərində onun adı "Qavalçalan daş" deyə çəkilir. Çünki həmin abidə yerli maldarlara ata-babadan bu ad altında məlum olmuşdur. Qobustanda iki qədim musiqi aləti qorunub saxlanılır. Onlardan biri Böyükdaş dağının aşağı səkisində digəri isə Cingirdağda yerləşir . Daş dövründən zəmanəmizə kimi qalmış bu daş alətlərin hər biri özündən altdakı qayaya yalnız iki nöqtədən toxunan yastı əhəng daşı parçasından ibarətdir . Qavaldaşın müxtəlif nöqtələrinə zərbə endirildikdə , qalınlığından və nazikliyindən, böyük və kiçikliyindən, daşın qalın və ya nazik hissəsinə, vurulmasından asılı olaraq müxtəlif ahəngli səslər alınır.



**Dünyanın hər yerində və bütün xalqlarda olduğu kimi qədim qobustanlılar da, qarğıdan, qamışdan, ağacdan, dəridən və s. orqanik materiallardan düzəldilmiş nəfəsli və zərb musiqi alətlərindən də istifadə etmişlər. Lakin, orqanik materiallardan düzəldilmiş musiqi alətlərinin nümunələri min illər ərzində çürüyüb məhv olmuş, bugünümüzə qədər gəlib çatmamışdır.**

Daşdan musiqi aləti kimi istifadə edilməsi tək Qobustanda deyil, dünyanın bir sıra regionlarında daş tam-tamlar və daş litofonlar da məlumdur.

**Qavaldaşdan ovçuları ova səsləmək , uzaq məsafəyə xəbər göndərmək üçün siqnal vasitəsi kimi istifadə etmişlər . Qədim Qobustanlılar öz bayramlarını, şənliklərini, rəqslərini və başqa mərasimlərini Qavaldaşın musiqisi ilə müşayiət etmişlər. Qavaldaş Qobustanın möcüzələrindəndir. Bu günümüzdə də qavaldaşda istənilən musiqini səsləndirmək olar.**

**Arifə QURBANOVA**